# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ KOMİSSİYA

## Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının (2012-2015-ci illər) yerinə yetirilməsi ilə əlaqədar 2014-cü il ərzində görülən işlər barədə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın

## M Ə L U M A T I

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş 2012-2015-ci illəri əhatə edən "Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"nın (bundan sonra- "Fəaliyyət Planı") əsas prinsipləri dövlət orqanların fəaliyyətində şəffaflığın və hesabatlılığın artırılması, ictimaiyyətin iştirakının genişləndirilməsi və dövlət idarəçiliyində yeni texnologiyaların tətbiqidir. Azərbaycan Respublikası tərəfindən 2007-2011-ci illərdə dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədi ilə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmişdir. Ölkəmiz açıq hökumət prinsiplərinin təşviqi sahəsində beynəlxalq səylərə də öz töhfəsini vermiş və Açıq Hökumət Tərəfdaşlığına ilk qoşulan dövlətlərdən biri olmuşdur.

Fəaliyyət Planının təsdiq edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamına əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanları Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı məlumatları Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına (bundan sonra Komissiya) təqdim edirlər. Komissiya Fəaliyyət Planının qiymətləndirilməsində dövlət orqanları tərəfindən təqdim edilmiş məlumatlardan əlavə olaraq, kütləvi informasiya vasitələrində yer alan məlumatları, vətəndaş cəmiyyəti üzvlərinin araşdırmalarını, fikir və rəylərini də nəzərə alır. Komissiya tərəfindən Fəaliyyət Planından nəzərdə tutulan tədbirlərin icra vəziyyəti ilə bağlı məlumatlar təhlil edilərək, müntəzəm olaraq ictimaiyyətin diqqətinə təqdim edilir. Belə ki, 2012-2013-cü illər üzrə aparılan qiymətləndirməyə əsasən dövlət orqanları tərəfindən Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin 64%-i icra edilmişdir.

Komissiya tərəfindən təqdim edilən cari qiymətləndirmə 2014-cü ildə mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən Fəaliyyət Planı çərçivəsində görülmüş tədbirlərin icra vəziyyətini əhatə edir. Bununla əlaqədar Komissiya qeyd edir ki, keçən illə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları tərəfindən təqdim edilmiş məlumatlar Komissiyanın tövsiyələrinə uyğun olaraq formaca daha ətraflı və dəqiq hazırlanmışdır. Ümumi olaraq Komissiya tərəfindən aparılan qiymətləndirmənin nəticəsinə əsasən isə Fəaliyyət Planında 2014-ci il üçün nəzərdə tutulan tədbirlərin dövlət qurumları tərəfindən tam icra vəziyyəti 76% müəyyən edilmişdir. Bununla əlaqədar ətraflı məlumatlar Komissiyanın internet səhifəsində yerləşdirilmişdir.

Ümumən hesabat ilində dövlət orqanları tərəfindən informasiya əldə edilməsinin asanlaşdırılması, dövlət orqanlarının fəaliyyətləri barədə ictimaiyyətə müntəzəm məlumat verilməsi və elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində tədbirlər tam icra edilmişdir. Elektron hökumət portalı tərəfindən göstərilən xidmətlərin sayı artmış, portalın texniki və funksional imkanları genişləndirilmişdir. Dövlət tərəfindən vətəndaşlara hüquqi xidmətlərin göstərilməsi təkmilləşdirilmiş, "Asan xidmət" mərkəzlərinin coğrafiyası və göstərdiyi xidmətlər genişlənmiş, 2014-cü ildə Bakı şəhəri üzrə xidmətlərin göstərilməsində rayon qeydiyyatı məhdudiyyəti aradan qaldırılmışdır. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət orqanlarının yanında ictimai şuraların yaradılması, ictimai müzakirə və dinləmələrin keçirilməsi və vətəndaş cəmiyyəti institutlarının dövlət orqanlarının fəaliyyətində daha sıx iştirakı təmin edilmişdir.

## Qiymətləndirmə Metodologiyası

Fəaliyyət Planının qiymətləndirmə metodologiyası 2 əsas hissədən ibarətdir. Birinci mərhələdə qiymətləndirmə 9 bənd üzrə 45 fəaliyyət növünün müvafiq dövlət qurumları tərəfindən tam, qismən və ya icra olunmama vəziyyətini müəyyən edir. Belə ki, birinci mərhələdə 45 fəaliyyət növü üzrə 0-2 şkalası əsasında dövlət orqanları tərəfindən Fəaliyyət Planının müvafiq bəndlərinin icra vəziyyəti müəyyənləşdirilir. Qeyd olunan şkala əsasında fəaliyyət növləri üzrə icra səviyyəsi; 0 xal- icra olunmayıb, 1 xal- qismən icra olunub, 2 xal- tam icra olunub kimi qiymətləndirilir.

Nəticədə fəaliyyət növləri üzrə dövlət qurumlarına verilən xallar toplanaraq, eyni öhdəliklər qrupunun xal şkalası əsasında, fəaliyyət növünün mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən tam, qismən və icra olunmaması üzrə orta faizlər hesablanır. İkinci mərhələdə isə ilkin qiymətləndirmənin nəticəsi əsasında Fəaliyyət Planında 2014-cü il üçün nəzərdə tutulan tədbirlərin ümumilikdə hansı səviyyədə icra olunması müəyyən edilir.

Fəaliyyət Planının icrası ilə bağlı konkret bəndlər üzrə aşağıdakı tədbirlər həyata keçirilmişdir.

| | |
|---|---|
| **1. Informasiya əldə edilməsinin asanlaşdırılması** | |
| 1.1 | Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması (icra müddəti 2012-2014) |
| Bu bəndin tələblərini dövlət orqanlarının 80 faizi tam icra edib, 14 faizi isə qismən icra edib, 6 faiz isə icra etməyib. Belə ki, bütün mərkəzi icra hakimiyyəti orqanlarında və əksər yerli icra hakimiyyəti orqanlarında məsul şəxslər təyin edilmiş, daxili icraat qaydaları qəbul edilmiş və bu barədə məlumatlar dövlət orqanlarının internet səhifələri vasitəsi ilə ictimaiyyətə təqdim edilmişdir. Komissiya qeyd edir ki, yerli icra hakimiyyəti orqanları tərəfindən bu bəndin tələblərinə diqqəti | |

| | |
|---|---|
| artırılmalı və bu barədə ictimaiyyətin məlumatlandırılması təmin edilməlidir. | |
| 1.2 | İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlərin keçirilməsi (icra müddəti 2012-2014) |
| Bu bəndin tələblərini dövlət orqanlarının 80 faizi tam icra edib, 16 faizi isə qismən icra edib, 4 faiz isə icra etməyib. Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən informasiya azadlığını təmin edilməsinə məsul şəxslər üçün ixtisaslaşmış treninqlər keçirilmiş və bu barədə məlumatlar müntəzəm olaraq Komissiyaya təqdim edilmişdir. Komissiya qeyd edir ki, yerli icra hakimiyyəti orqanları tərəfindən bu tədbirlərin icrasına diqqət artırılmalı və mütəmadi təlimlərin keçirilməsi təmin edilməlidir. Bu məqsədlə ixtisaslaşmış təlimlərin keçirilməsi üçün mövcud təlim proqramları və metodoloji vasitələrdən istifadə genişləndirilməlidir. | |
| 1.3 | "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi, aidiyyəti əməkdaşların ixtisaslaşmış treninqlərə cəlb edilməsi (icra müddəti 2013-2014) |
| Bu bəndin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsman) aparatının strukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirlər davam etdirilmiş, Ombudsman Aparatının əməkdaşları ixtisaslaşmış treninqlərə cəlb edilmişdir. Bu bəndin tələbləri qismən icra edilmiş hesab edilir. | |

| | |
|---|---|
| **2. Dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi** | |
| 2.1 | Dövlət orqanlarının öz fəaliyyəti barədə məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi (icra müddəti: mütəmadi) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 90 faiz tam, 6 faiz qismən icra edilmiş, 4 faiz icra edilməmişdir. Mərkəzi icra hakimiyyəti orqanların fəaliyyətləri ilə bağlı məlumatlar mütəmadi olaraq yenilənmiş əsaslarla internet səhifələrdə yerləşdirilmiş və məlumatların əlçatanlığını təmin edilmişdir. Yerli icra hakimiyyəti orqanları ilə bağlı olaraq internet səhifələrdə məlumatlar natamam yerləşdirilmiş və vətəndaşlar üçün xüsusi əhəmiyyət kəsb edən hesabatlar və digər məlumatlar ətraflı hazırlanmamışdır. Komissiya qeyd edir ki dövlət orqanlarının internet səhifələri mütəmadi yenilənməli və vətəndaşlarla ünsiyyətin qurulması üçün səmərəli vasitə kimi istifadə edilməlidir. | |
| 2.2 | Dövlət orqanlarının öz fəaliyyəti barədə illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması (icra müddəti 2012-2015) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 90 faiz tam icra edilmiş, 4 faiz isə icra edilməmişdir. Komissiya qeyd edir ki, yerli icra hakimiyyəti orqanları tərəfindən fəaliyyətləri barədə illik məruzələr tərtib edilsə də, onların internet səhifələrdə açıqlanması tam təmin edilməmişdir. Həmçinin bu cür məlumatlar internet səhifələrdə asan əldə edilə bilən formada yerləşdirilməlidir. | |

| | |
|---|---|
| 2.3 | Dövlət orqanlarının öz fəaliyyəti barədə mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi (icra müddəti 2012-2015) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 82 faiz tam icra edilmiş, 12 faiz qismən icra edilmiş, 6 faiz isə icra edilməmişdir. Əksər mərkəzi icra hakimiyyəti orqanları tərəfindən regionlarda vətəndaşların qəbulu təşkil edilmiş, onların şikayət və təklifləri qeydə alınmış və müvafiq tədbirlər görülmüşdür. Görüşləri əks etdirən video və foto lentlər kütləvi informasiya vasitələrində və internet səhifələrdə yerləşdirilmişdir. Komissiya qeyd edir ki, dövlət orqanları tərəfindən vətəndaşlar üçün təşkil edilən qəbul günlərinin, açıq qapı formatında tədbirlərin sayı artırılmalı, bu prosesdə elektron vasitələrin tətbiqi genişləndirilməlidir. İcra hakimiyyəti orqanları tərəfindən mətbuat konfransları və digər açıq görüşlər barədə məlumatlar qabaqcadan vətəndaşlara bildirilməli və sistemli olaraq qurumların internet səhifələrində yerləşdirilməlidir. Həmçinin bir sıra dövlət qurumları öz fəaliyyətləri barədə hesabatları internet səhifələrində yerləşdirsə də, bununla bağlı birbaşa ünsiyyət formasında tədbirlər keçirməmişlər.

| | |
|---|---|
| 2.4 | Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi (icra müddəti: mütəmadi) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 65  faiz tam icra edilmiş, 25 faiz qismən icra edilmişdir, 20 faiz isə icra edilməmişdir. Bu bəndə müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən azərbaycan, ingilis və rus dillərində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma, müvəqqəti və daimi yaşama, onların hüquq və azadlıqları və digər mövzuları əhatə edən məlumatlar barədə sadə dildə yazılmış bələdçi qaydalar hazırlanaraq, aidiyyəti şəxslər arasında paylanması təmin edilmişdir. Həmçinin bu məlumatlar qurumun internet səhifəsində dərc edilmişdir. Komissiya qeyd edir ki, bu formatda məlumatlar mütəmadi hazırlanmalı, internet səhifələrində və inzibati binalarda vətəndaşları asan görə biləcəyi yerlərdə asılmalı və məlumatların əlçatanlığı təmin edilməlidir. Həmçinin dövlət qurumları tərəfindən hazırlanan bələdçi qaydalar və bu tip nəşrlər elektron və ya nəşr formasında Komissiyaya göndərilən hesabatlara əlavə edilməlidir.

| | |
|---|---|
| 2.5 | Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması (icra müddəti 2012-2014) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 75 faiz tam icra edilmiş, 15 faiz qismən icra edilmiş, 20 faiz isə icra edilməmişdir. Cari hesabat ilində Azərbaycan Respublikasının Vergilər, nəqliyyat, iqtisadiyyat və sənaye, müdafiə sənayesi, gənclər və idman, mədəniyyət və turizm nazirlikləri və digər dövlət qurumları tərəfindən dövlət proqramların icrası barədə məlumatlar qurumların rəsmi internet səhifələrində "Dövlət proqramları" adlı bölmədə mütəmadi olaraq yenilənmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə www.opengov.csc.gov.az internet portalı, Azərbaycan Respublikasının Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən www.auksion.gov.az və www.kadastr.gov.az internet portalları, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən isə www.azerkosmos.az internet portalı yaradılmışdır.

| | |
|---|---|
| 2.6 | Dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi(icra müddəti: 2013-ci il) |

Bu bəndin icrasına müvafiq olaraq Xüsusi Dövlət Mühafizə Xidməti, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə fəaliyyəti nəticəsində dövlət qurumlarının internet səhifələrinin vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi barədə Nazirlər Kabineti tərəfindən "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər" təsdiq edilmişdir. Bu bəndin icrası tam hesab edilir. Qeyd olunan sənəd internet ehtiyatlarda yerləşdirilib (www.e-qanun.az) və ictimaiyyət üçün açıqdır.

| | |
|---|---|
| 2.7 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verməsi (icra müddəti 2012-2015) |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında qeyd edilən istiqamətlər üzrə həyata keçirilmiş tədbirlər barədə məlumatlar daxil edilmişdir.

## 3. Normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi

| | |
|---|---|
| 3.1 | Rəsmi hüquqi istinad mənbəyi olan Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının mütəmadi yenilənməsi və elektron bazanın daim işlək vəziyyətdə saxlanılması (icra müddəti: mütəmadi) |

İctimaiyyət üçün daim açıq olan və mütəmadi yenilərək ödənişsiz əsaslarla fəaliyyət göstərən Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantına (www.huquqiaktlar.gov.az) hesabat dövründə 1727, milli qanunvericiliyin elektron bazasında (www.e-qanun.az) isə 1756 sənəd daxil edilmişdir. Hazırda həmin internet resurslarda sənədlərin sayı müvafiq olaraq 19.878 və 28.606-nı ötmüşdür. Təkcə elektron bazaya 2014-cü il ərzində 175.688 başçəkmə olmuşdur ki, bu da ötən illə (154.568) müqayisədə 14 % çoxdur. Eyni zamanda həmin saytların işlək vəziyyətdə saxlanılmasını təmin etmək məqsədi ilə hesabat illərində onların texniki və proqram təminatı, o cümlədən qeydiyyat informasiya sistemi təkmilləşdirilmişdir. Bu bəndin icra vəziyyəti tam hesab edilir.

## 4. Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi

| | |
|---|---|
| 4.1 | Dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi (icra müddəti: mütəmadi) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 56 faiz tam icra edilmiş, 37 faiz qismən icra edilmiş, 7 faiz isə icra edilməmişdir. Əksər dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti əsasən onlayn formada cəlb edilmişdir. Komissiya qeyd edir ki, dövlət orqanları tərəfindən ictimai dinləmələrin bir başa ünsiyyət

| | |
|---|---|
| formasında həyata keçirməsinə üstünlük verilməli, aidiyyəti sahələr üzrə ixtisaslaşmış qeyri hökumət təşkilatların nümayəndələri bu prosesə aktiv şəkildə cəlb edilməli, onların təcrübəsindən istifadə edilməli, fikir və rəyləri daim öyrənilməli və aparılmış müzakirələrin nəticələri ictimaiyyətə açıq olmalıdır. | |
| 4.2 | Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması (icra müddəti 2012-2013) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 48 faiz tam icra edilmişdir, digər aidiyyəti qurumlar bu istiqamətdə fəaliyyəti həyata keçirməyiblər. Komissiya qeyd edir ki, dövlət orqanları tez bir zamanda ictimai şuraları yaratmalı, müvafiq əməkdaşlıq şuraların fəaliyyəti üçün zəruri tədbirlər həyata keçirilməli və bununla bağlı Komissiyaya məlumat göndərməlidirlər. Həmçinin qeyd edilməlidir ki, tələb edilən formatda şura və əməkdaşlıq şəbəkələri Gənclər və İdman, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər nazirliklərində, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial Innovasiyalar üzrə Dövlət Agentliyində, Dövlət Sosial Müdafiə Fondunda və digər dövlət qurumlarında fəaliyyətlərini davam etdirirlər. | |
| 4.3 | İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.) (icra müddəti: mütəmadi) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 85 faiz tam icra edilmiş, 7 faiz qismən icra edilmiş, 8 faiz isə icra edilməmişdir. Belə ki, əksər mərkəzi icra hakimiyyəti orqanları tərəfindən vətəndaşların təklif və rəylərinin qəbul edilməsi və onların cavablandırılması elektron poçt ünvanları, onlayn müraciət və sual-cavab bölmələri vasitəsilə həyata keçirilmişdir. Bir sıra dövlət orqanları isə sosial şəbəkələrdə olan rəsmi hesablarından istifadə edərək fəaliyyətləri ilə bağlı vətəndaşları maraqlandıran sualları cavablandırmış və fəaliyyətlərində onların aktiv iştirakını təmin etmişlər. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, vergilər, təhsil, gənclər və idman nazirlikləri və digər dövlət orqanlarının sosial şəbəkələrdə olan səhifələri mütəmadi yenilənmiş, müxtəlif mövzularda məlumatlar yerləşdirilmiş və interaktiv sual-cavab fəaliyyəti həyata keçirilmişdir. Komissiya qeyd edir ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Fərmanı bu bəndin yerli icra hakimiyyəti orqanları tərəfindən tam icra olunması üçün böyük əhəmiyyətə malikdir. | |
| 4.4 | Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi (icra müddəti: mütəmadi) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 78 faiz tam icra edilmiş, 10 faiz qismən icra edilmiş, 12 faiz isə icra edilməmişdir. Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumları xüsusilə regionlarda həyata keçirilmiş və vətəndaşlar tərəfindən müsbət qarşılanmışdır. Komissiya qeyd edir ki, dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumların sayı artırılmalı və bununla bağlı öncədən vətəndaşlara kütləvi informasiya vasitələri və internet səhifələr vasitəsi ilə məlumatlar | |

| |
|---|
| verilməlidir. Həmçinin "Açıq qapı" vətəndaş forumuna müraciət edən hər bir şəxsin şikayəti və təklifi dinlənilməli və zəruri tədbirlər görülməlidir. Bundan əlavə, dövlət orqanları tərəfindən növbəti hesabatlarda həyata keçirilən "Açıq qapı" vətəndaş forumları ilə bağlı ətraflı məlumatlar (forumların sayı, təxmini iştirakçıların sayı, mətbuatda yer alan məlumatlar və sair) təqdim edilməlidir. |

| | |
|---|---|
| **5. Elektron xidmətlərin təkmilləşdirilməsi** | |
| 5.1 | Elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmənin həyata keçirilməsi və ictimaiyyətə açıqlanması (icra müddəti: mütəmadi) |
| Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən elektron xidmətlərin təşkilinin və göstərilməsinin qiymətləndirilməsi tədbirləri çərçivəsində 42 dövlət orqanı tərəfindən həyata keçirilən 438 elektron xidmət qiymətləndirilmiş və bununla bağlı məlumatların ictimaiyyətə açıqlanması təmin edilmişdir. Elektron xidmətlər "Elektronlaşma və əlaqəlilik səviyyəsi", "İnformasiya açıqlığı və əldə olunma (giriş) səviyyəsi" və "İstifadə rahatlığı səviyyəsi" meyarları üzrə təhlil edilmişdir. Elektron xidmətlərin təşkilinin həyata keçirilməsi ilə bağlı mövcud vəziyyətə dair hər bir dövlət orqanı üzrə rəy hazırlanmış, müvafiq çatışmazlıqlar qeyd olunmuş və hər bir orqana çatışmazlıqların aradan qaldırılması və xidmətlərin daha keyfiyyətli təşkili ilə bağlı təkliflər verilmişdir. Hazırda Agentlik tərəfindən qiymətləndirmənin həyata keçirilməsi üçün hazırlanmış xüsusi proqram təminatının təkmilləşdirilməsi və 2015-ci ildə qiymətləndirmənin proqram təminatı üzərindən aparılması üzrə tədbirlər görülür. | |
| 5.2 | Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi (icra müddəti 2013-2015) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 65 faiz tam icra edilmiş, 28 faiz qismən icra edilmiş, 7 faiz isə icra edilməmişdir. Əksər mərkəzi icra hakimiyyəti həyata keçirdikləri elektron xidmətlər barədə məlumatları mütəmadi olaraq ictimaiyyətə çatdırmış, bu məqsədlə təqdimatlar və maarifləndirmə tədbirləri həyata keçirmiş və ictimaiyyət geniş məlumatlandırılmışdır. Belə ki, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərə, elektron xidmətlərin təşviqi ilə bağlı regionlarda keçirilən tədbirlərə, 195-2 telefon məlumat mərkəzində, www.icazeler.gov.az, www.b2b.az saytların fəaliyyətinə dair ictimai təqdimatlar keçirilmişdir. | |
| 5.3 | Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması (icra müddəti 2013-2014) |
| 2012-2013-ci illərdə Elektron Hökumət Dövlət İnformasiya Sistemi yaradılmış və artıq 40 dövlət orqanın bu sistemə qoşulması təmin etmişdir. 2014-cü il ərzində "Elektron hökumət" portalına 114 yeni e-xidmət inteqrasiya edilmişdir. Elektron portalda olan e-xidmətlərin sayı ümumilikdə 396-ya çatdırılmışdır ki, bu da ötən ilin yekunları ilə müqayisədə 40% çoxdur. Portala əlavə olunan yeni elektron xidmətlər Vergilər Nazirliyinə, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, Səfərbərlik və Hərbi | |

Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Ədliyyə Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya, Əmlak Məsələləri Dövlət Komitəsinə və Dövlət Miqrasiya Xidmətinə məxsusdur. 2014-cü il ərzində portaldakı e-xidmətlərdən istifadə sayı 5,8 milyonu, portalın istifadəçilərinin sayı isə 1,1 milyonu nəfəri keçmişdir.

| | |
|---|---|
| 5.4 | Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi (icra müddəti 2013-2014) |

Bu bəndin icrasına müvafiq olaraq Mərkəzi Bank tərəfindən büdcə ödənişlərinin bank və ya ödəniş kartları vasitəsilə həyata keçirilməsinin təmin edilməsi məqsədilə Hökumət Ödəniş Portalı yaradılmış və hal-hazırda 58-dən artıq qurum bu ödəniş portalına qoşulmuşdur. Qeyd edilir ki, ödənişlər "Azərpoçt" MMC-nin və 42 bankın yaradılmış infrastruktura inteqrasiya olunmuş 1500-ə yaxın ödəniş məntəqəsində nağd formada və ya portalın internet resursundan (www.gpp.az) istifadə etməklə ödəniş kartları vasitəsilə nağdsız qaydada qəbul edilir.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən çox funksiyalı ASAN ödəniş sisteminin fəaliyyəti təmin edilmiş və terminallar mərkəzlərdə quraşdırılmışdır. Vətəndaşlar “ASAN ödəniş” vasitəsi ilə inzibati cərimələri və məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitləri elektron qaydada mobil qurğular, xüsusi terminal və digər yollarla ödəyə bilərlər. Vətəndaşların istifadəsinə verilmiş www.asanpay.az portalının isə imkanlarının 2015-ci il ərzində daha da genişləndirilməsi nəzərdə tutulur. Gələcəkdə ödəniş vasitələri genişləndirilərək asanpay.az portalı tərəfindən “elektron pul cüzdan” və “internet/mobil bankçılıq” xidmətləri istifadəyə veriləcəkdir.

| | |
|---|---|
| 5.5 | Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi (icra müddəti 2013-2014) |

Bu bəndin icrası ilə əlaqədar Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) “Azərpoçt” müəssisəsi tərəfindən əhalinin elektron xidmətlərdən istifadəsi asanlaşdırmaq məqsədilə regionlarda və xüsusilə ucqar kəndlərdə internet və informasiya köşkləri quraşdırılmış, geniş zolaqlı internetə çıxış təmin edilmişdir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Sumqayıt, Bərdə və Gəncə “ASAN xidmət” mərkəzlərində “özünəxidmət kiosklar”ın fəaliyyəti təmin edilmiş və elektron məlumat kioskları yaradılmışdır. Həmçinin “ASAN xidmət” mərkəzlərində vətəndaşlar tərəfindən kommunal xərclər və digər inzibati ödənişlərin həyata keçirilməsi üçün “ASAN Pay” və digər ödəniş kioskların fəaliyyəti təmin edilmişdir. Komissiya qeyd edir ki, yerli icra hakimiyyəti orqanları bu istiqamətdə olan fəaliyyətlərinə diqqəti artırmalı, belə ki yerli icra hakimiyyəti orqanların inzibati binalarında və müvafiq strukturlarında vətəndaşların istifadəsi üçün kompüter köşkləri yaratmalıdırlar.

## 6. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması

<table>
<tr><td>6.1</td><td>Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması (icra müddəti 2013-2014)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla araşdırmalar aparılmış, təhlillər yekunlaşdırılaraq müvafiq qanun layihəsi (Dövlət Maliyyə Nəzarəti haqqında) hazırlanmışdır. Aidiyyəti dövlət orqanları tərəfindən Qanun layihəsi ilə bağlı təkliflər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir. Qanun layihəsində maliyyə nəzarəti orqanlarının vəzifə və funksiyalarının, habelə hüquq və səlahiyyətlərinin konkret olaraq təsbit edilməsi ilə bağlı müddəalar nəzərdə tutulmuşdur.</td></tr>
<tr><td>6.2</td><td>Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barədə təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi (icra müddəti 2013-2015)</td></tr>
<tr><td colspan="2">Azərbaycan Respublikası Maliyyə Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidməti, Vergilər Nazirliyi, Hesablama Palatası və digər aidiyyəti dövlət orqanları fəaliyyəti barədə məlumatları mütəmadi olaraq ictimaiyyətə təqdim olunmasını rəsmi internet səhifələr vasitəsi ilə təmin etmişlər. Bu bəndin birinci hissəsi ilə bağlı müddəalar isə 6.1-ci bənddə qeyd edilmiş qanun layihəsində öz əksini tapmışdır.</td></tr>
<tr><td>6.3</td><td>Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət (“e-nəzarət”) sisteminin yaradılması (icra müddəti 2013-2014)</td></tr>
<tr><td colspan="2">Bu bəndinin icrası məqsədi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyində xəzinədarlıq sisteminin təkmilləşdirilməsi istiqamətində SAP proqramı bazasında “Xəzinədarlığın İdarəedilməsinin İnformasiya Sistemini”nin (XİİS) tətbiqi təmin edilmiş, 2014-cü ildə milli və xarici valyutada birbaşa xərclərin bu sistem vasitəsilə icra edilməsinə başlanılmışdır. Həmçinin xəzinə xidmətlərinin keyfiyyətinin artırılması, şəffaflığın artırılması və bu istiqamətdə nəzarətin gücləndirilməsi məqsədilə Dövlət Xəzinədarlığı Agentliyi və büdcə təşkilatları arasında yaradılmış proqram təminatının XİİS-də fəaliyyəti təmin edilmişdir.</td></tr>
<tr><td>6.4</td><td>Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili (icra müddəti 2013-2014)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrasına 2013-cü ildə başlanılmış və hal-hazırda bu istiqamətdə tədbirlər mütəmadi olaraq davam etdirilir. Bəndin icrası zamanı Maliyyə Nazirliyinin Kollegiyası tərəfindən 14 fevral 2013-cü il tarixdə “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti (DMNX) tərəfindən nəzarət tədbirlərinin planlaşdırılması, aparılması və nəticələrin rəsmiləşdirilməsi Qaydaları” təsdiq edilmiş və hazırda digər dövlət maliyyə nəzarəti orqanları ilə məlumat mübadiləsinin aparılması tətbiq olunmaqdadır. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Hesablama Palatası arasında müvafiq informasiya mübadiləsinin aparılması təmin edilir. Dövlət Maliyyə Nəzarəti Xidmətində nəzarət obyektləri haqqında minimum məlumatlar və onlarda həyata keçirilmiş sonuncu nəzarət tədbirlərinin tarixini göstərən vahid elektron məlumat bazası mövcuddur və bu sahədə fəaliyyət davam etdirilir.</td></tr>
</table>

| | |
|---|---|
| 6.5 | Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi (icra müddəti 2013-2014) |

Bu bəndin icrası ilə əlaqədar ilə Maliyyə Nazirliyi tərəfindən səlahiyyətləri daxilində "Mühasibat uçotu haqqında" Qanunun 12-ci və 16-cı maddələrinə, İnzibati Xətalar Məcəlləsinin 247-1-ci maddəsinə, habelə Nazirlər Kabinetinin 2012-ci il 6 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi Qaydları"na müvafiq olaraq, dövlət müəssislərinin illik maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət təmin edilir.

| | |
|---|---|
| 6.6 | Yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurалarına dair təkliflər hazırlanması (icra müddəti: 2013-ci il) |

Bu bəndin icrası ilə əlaqədar olaraq "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişiklər edilmiş və bələdiyyə orqanları tərəfindən yerli büdcənin icrası, maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi ilə bağlı müddəalar qeyd olunan dəyişiklərdə öz əksini tapmışdır. Eyni zamanda Maliyyə Nazirliyi tərəfindən bələdiyyələrin gəlirləri və xərcləri barədə məlumatları həmçinin yerli büdcələrin icrasına dair rüblük və illik hesabatların elektron formada nazirliyə təqdim olunmasına şərait yaradılmışdır.

| | |
|---|---|
| 6.7 | Dövlət büdcəsinin icrası barədə hesabat və müvafiq qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək dərc edilməsi (icra müddəti 2013-2015) |

Bu bəndin icrası ilə bağlı qeyd edilməlidir ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 2013-cü ilin dövlət büdcəsinin icrası barədə illik və 2014-cü il üzrə dövlət büdcəsinin icrası barədə rüblük məlumatlar Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Həmçinin 2015-ci il dövlət və icmal büdcələrinin layihələri və növbəti üç il üçün icmal büdcənin göstəriciləri Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməmişdən əvvəl təqdimat şəklində hazırlanaraq Maliyyə Nazirliyinin rəsmi internet saytında və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

## 7. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması

| | |
|---|---|
| 7.1 | Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin |

<table>
<tr><td></td><td>təkmilləşdirilməsi (icra müddəti 2012-2014)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası ilə bağlı hesabat ilində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 3.2 milyon nəfər şəxs daxil olmuş və “Sual-cavab” bölməsinə ünvanlanmış 1414 müraciətin cavablandırılması təmin edilmişdir. “Sual-cavab” bölməsində yerləşdirilən suallara cavabların istifadəçilər tərəfindən qiymətləndirilməsi mexanizmi yaradılmışdır. Həmçinin nağdsız ödənişlərin stimullaşdırılması və POS-terminallardan istifadənin genişləndirilməsi məqsədilə “Sürətli keçid nağdsız ödəyin!” layihəsi həyata keçirilmişdir. “195” Çağrı Mərkəzi tərəfindən vətəndaşların ümumilikdə 250 minə yaxın müraciəti cavablandırılmışdır. Bundan əlavə olaraq, aviabiletlərin üzərində, şəhərlərin müxtəlif yerlərində o cümlədən iri ticarət mərkəzlərində əmək müqavilələrinin bağlanmasının zəruriliyi mövzusunda təbliğat materialları yerləşdirilmişdir.</td></tr>
<tr><td>7.2</td><td>Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi (icra müddəti 2012-2013)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası ilə əlaqədar vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondun “Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksi”nə uyğunlaşdırılması sahəsində tədbirlər davam etdirilmiş və bununla əlaqədar müvafiq təkliflər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. Eyni zamanda Beynəlxalq Valyuta Fondu tərəfindən bu kodeksə əlavə və dəyişikliklər edilməsi ilə əlaqədar layihənin hazırlanması barədə ictimaiyyətə açıqlama verilmişdir. Layihə ilə bağlı verilən rəy və təkliflərə əsasən sənədin yekun variantı hazırlanmış və təsdiq üçün Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurasına təqdim edilmişdir. Layihə təsdiq edildikdən sonra onun dərc edilməsi nəzərdə tutulur.</td></tr>
<tr><td>7.3</td><td>Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi (icra müddəti 2012-2013)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası ilə əlaqədar vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi davam etdirilmişdir. Vergilər nazirliyi tərəfindən əksər ödənişlərin elektron qaydada ödənilməsi təmin edilmişdir. Həmçinin vergi ödəyicilərinin ƏDV depozit hesabı vasitəsilə ƏDV faizləri üzrə borcunun yarandığı təqdirdə bu məbləğin sub-uçot hesabından avtomatik büdcəyə silinməsi ilə bağlı vergi ödəyiciləri üçün İnternet Vergi idarəsində müvafiq imkan yaradılmış və 2013-cü ildən istifadəyə verilmişdir. Eyni zamanda Vergilər Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinə, biznes strukturlarına göstərilən elektron xidmətlərin müxtəlifliyinin və həcminin artırılması sahəsində bir sıra zəruri tədbirlər həyata keçirilmiş, Nazirlik ilə Mərkəzi Bankın birgə həyata keçirdikləri tədbirlər nəticəsində vergi və rüsumların elektron ödəniş sistemi yaradılmışdır.</td></tr>
</table>

<table>
<tr><td colspan="2">8. Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması</td></tr>
<tr><td>8.1</td><td>Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin</td></tr>
</table>

<table>
<tr><td></td><td>ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi (icra müddəti 2012-2015)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası üzrə Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü tərəfindən mütəmadi tədbirlər həyata keçirilmişdir. Hesabat dövründə hökumət, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələri ilə mütəmadi görüşlər keçirilmişdir. Eyni zamanda 2014-cü ilin 10 iyun tarixində MHŞT üzrə Komissiya və "Mədən Sənayesində Şəffaflığın Artırılması" QHT Koalisiyası arasında yeni "Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikasında tətbiqinə dair qarşılıqlı anlaşma haqqında" Memorandum imzalanmışdır. Memorandumun imzalanması ilə ölkədə MHŞT Standartına uyğun yeni hesabatlılıq mərhələsinə start verilmişdir.</td></tr>
<tr><td>8.2</td><td>Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatların ictimaiyyətə mütəmadi açıqlanmasının davam etdirilməsi (icra müddəti 2012-2015)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası ilə əlaqədar Dövlət Neft Fondu tərəfindən Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü Standartının tələblərinə uyğun hesabat hazırlanmış və 2014-cü il 3 oktyabr tarixində Çoxtərəfli Qrupa təqdim edilmişdir. Hesabatın yekun variantının cari il ərzində açıqlanması nəzərdə tutulmuşdur.</td></tr>
<tr><td>8.3</td><td>Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatların açıqlanması (icra müddəti 2012-2015)</td></tr>
<tr><td colspan="2">Dövlət Neft Fondu tərəfindən Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə 2013-cü il üzrə hesabatı ictimaiyyətə açıqlanmışdır.</td></tr>
</table>

## 9. Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi

<table>
<tr><td>9.1</td><td>Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması (icra müddəti 2012-2015)</td></tr>
<tr><td colspan="2">Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamına əsasən dövlət qurumları Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Komissiyaya illik hesabatlarını təqdim edirlər. Komissiya tərəfindən Fəaliyyət Planının 2014-cü il üzrə icra vəziyyəti barədə məlumatların ictimaiyyətə açıqlanması təmin edilmişdir.</td></tr>
<tr><td>9.2</td><td>Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması (icra müddəti: mütəmadi)</td></tr>
<tr><td colspan="2">Bu bəndin icrası dövlət orqanları tərəfindən 81 faiz tam icra edilmiş, 15 faiz qismən icra edilmiş, 4 faiz isə icra edilməmişdir. Komissiya qeyd edir ki, dövlət orqanları tərəfindən maarifləndirici</td></tr>
</table>

| | |
|---|---|
| materialların təşviqatını müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilərək sosial şəbəkə və internet səhifələrdə dərc edilməsi təmin edilməlidir. | |
| 9.3 | "Açıq Hökumət Tərəfdaşlığı" çərçivəsində öhdəliklərin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi (icra müddəti 2012-2015) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 75 faiz tam icra edilmişdir. Belə ki dövlət orqanları tərəfindən qəbul edilmiş illik fəaliyyət planları və həyata keçirilmiş tədbirlər barədə hesabatların internet səhifələr vasitəsi ilə ictimaiyyətə açıqlanması təmin edilməlidir. Komissiya qeyd edir ki, dövlət orqanları Açıq Hökumət prinsiplərini fəaliyyətlərində rəhbər tutmalı və fəaliyyətləri barədə məlumatları mütəmadi ictimaiyyətə açıqlamalıdırlar. Bu proses həmçinin vətəndaş cəmiyyəti üzvlərinin bir başa iştirakı ilə seminar, konfrans, dəyirmi masa və digər formatlarda həyata keçirməlidir. | |
| 9.4 | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi (icra müddəti 2012-2015) |
| Bu bəndin icrası 33 faiz dövlət orqanları tərəfindən yerinə yetirilib. Bu məqsədlə Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Mədəniyyət və Turizm, İqtisadiyyat və Sənaye, Əmək və Əhalinin Sosial Müdaifəsi, Rabitə və Yüksək Texnologiyalara Nazirlikləri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına dəstək Şurası və bir sıra digər dövlət orqanları vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi ayırmışdır. Komissiya qeyd edir ki, Nazirlər Kabinetinin dövlət orqanlarının qeyri-hökumət təşkilatlarına maliyyə yardımı ayırması ilə bağlı qəbul ediləcək qərarından sonra vətəndaş cəmiyyət institutlarına bu sahədə dəstək artırılmalı və əməkdaşlıq mütəmadi xarakter daşımalı və birgə layihələrin sayı artmalıdır. | |